

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 120 (21.021)

26 iyun 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 24 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına ali hərbi rütbələr verilmişdir. Ali hərbi rütbə verilənlər arasında Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçuları da vardır.

**"general-mayor" ali hərbi rütbəsi**

polkovnik Həsənov Hikmət Hüseyn oğlu
polkovnik Kazımov Vasif Ramiz oğlu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 24 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrində tibb xidmətinin yaranmasında, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında fədakar əməyinə, Azərbaycanda təhsilin inkişafında xidmətlərinə və Azərbaycan Respublikası Silahlı Qüvvələrində uzunmüddətli səmərəli fəaliyyətinə, Azərbaycan mədəniyyətinin, o cümlədən incəsənətinin inkişafında və təbliğində, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində xidmətlərinə görə bir qrup şəxsə Azərbaycan Respublikasının fəxri adları verilmişdir. Fəxri ad alanlar arasında Naxçıvan Muxtar Respublikasının təhsil işçisi də vardır.

**"Əməkdar müəllim"**

Bağırova Təyibə İbrahim qızı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 24 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə, hərbi təhsil sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu və mülki işçisi təltif edilmişdir. Təltif olunanlar arasında Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçuları da vardır.

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Mustafayev Kərəm Nəriman oğlu – general-leytenant

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Baxşəliyev Məmmədhüseyn Yusif oğlu – polkovnik
Həsənov Məhəmməd Kərim oğlu – polkovnik

**"Vətən uğrunda" medalı ilə**

Əliyev İbrahim Alxan oğlu – tibb xidməti polkovniki
Gülməmmədov Mehman Fərman oğlu – polkovnik-leytenant

**"İgidliyə görə" medalı ilə**

Əliyev Əliş Vəli oğlu – polkovnik-leytenant
Məmmədov Cəlil Allahverən oğlu – polkovnik-leytenant

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abduləzizov Adil Abdüləziz oğlu – polkovnik
Həmidov Zaur Əlihüseyn oğlu – polkovnik-leytenant
Orucov Anar Elxan oğlu – polkovnik-leytenant
Əliyev Əli Mikayıl oğlu – mayor
Mustafayev Ramin Yunis oğlu – mayor

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 25 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyət göstərən bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçuları da vardır.

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Bayramov Mübariz Rəcəb oğlu
Cəmiyev Neymət Vəli oğlu
Əliyev Bəhrəm Musa oğlu
Mahmudov Əbülfəz Ələkbər oğlu
Mahmudov İqbal Məmməd oğlu
Nəcəfov Vüqar İsmayıl oğlu
Rüstəmov Cəlil Abbas oğlu
Seyidova Ramilə Mirabbas qızı
Şükürov Şərafəddin Səfər oğlu
Tahirov Çingiz Sabir oğlu

**"Tərəqqi" medalı ilə**

Rüstəmov Məzahir Musa oğlu

## Maşınqayırma sənayesi işçilərinin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Abdullayev Musa Əsgər oğlu – **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı;

Babayev Qadir Nurəli oğlu
Bayramov Xansuvar Məşdi oğlu
Budaqov Ruslan Kazım oğlu
Əliyev Oruc Əli oğlu
Əsədov Anar Mustafa oğlu
İsmayılov Rəhim Aslan oğlu
Qasımov Əsgər Rəsul oğlu
Məmmədov Ceyhun İbrahim oğlu
Məmmədov Nazim Hidayət oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyun 2014-cü il*

## Naxçıvan şəhərində quruculuq işləri sürətlə davam etdirilir

*Naxçıvan şəhərinin siması ildən-ilə yeni tikililərin həyata vəsiqə alması ilə daha da gözəlləşir. Qədimliklə müasirliyin sintezini özündə yaşadan, Şərq memarlığının incəliklərini özündə əks etdirən müxtəliftəyinatlı binaların tikintisi və ya yenidən qurulması şəhərimizi gözəlləşdirməklə yanaşı, həm də ölkəmizin iqtisadi gücünü təcəssüm etdirir.*



Naxçıvan şəhərinin Atatürk küçəsində İncəsənət Məktəbi üçün yeni bina inşa olunur. Dörd mərtəbədən ibarət olacaq binanın zirzəmi hissəsində hazırda beton-qəlib işləri aparılır. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən aparılan inşaat işlərinə bu ilin may ayından başlanılıb. İş icraçısı Əmirxan Mazanovun verdiyi məlumata görə, binanın zirzəmi hissəsində qazanxana, zal, kitabxana və sinif otaqları yerləşəcək. Digər mərtəbələrdə də sinif otaqları olmaqla, ikinci mərtəbədə müəllimlər otağı, üçüncü mərtəbədə isə konsert zalı olacaq.

* * *

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin inzibati binasında işlər davam etdirilir. İstismar müddətini başa vurmuş və



əsasən, daxili arakəsmələri ağac konstruksiyalardan ibarət olan binada cari ilin mart ayından əsaslı yenidənqurma işlərinə başlanılıb. Binanın daxili ağac konstruksiyaları, mərtəbələrarası tavanları tamamilə sökülərək dəmir-beton konstruksiyalarla yenidən qurulub, özül hissə isə bərkidilib. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan binanın zirzəmi hissəsində və birinci mərtəbəsində qapı-pəncərələr salınıb, ikinci mərtəbədə isə arakəsmələrin hörgüsü davam etdirilir, çardaq hissənin qurulmasına başlanılıb. Bina hazır olduqdan sonra zirzəmi hissədə kənd təsərrüfatı muzeyi, arxiv, kitabxana və akt zalı yerləşəcək. Digər mərtəbələr isə inzibati otaqlar üçün nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin inşaatçıları tərəfindən yenidən qurulan binada yerli inşaat materiallarından istifadəyə önəm verilir, təhlükəsizlik qaydalarına ciddi əməl olunur.

**Səbuhi HƏSƏNOV**

## Növbəti əmək yarmarkasında 35 nəfərə göndəriş verilib



*İşaxtaran vətəndaşların müvafiq iş yerləri ilə təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirləri davam etdirilir. Bunun üçün yerli məşğulluq mərkəzləri tərəfindən xidməti ərazi üzrə idarə, müəssisə və təşkilatlarla mütəmadi əlaqələr saxlanılaraq işaxtaran vətəndaşların seçimi üçün boş iş yerləri barədə məlumatlar toplanılır və əmək yarmarkalarına təqdim edilir. Növbəti belə əmək yarmarkası dünən Naxçıvan şəhərində keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov açıb. Qeyd olunub ki, Naxçıvan şəhərində aparılan tikinti-quruculuq işlərinin genişləndirilməsi, müxtəlif istehsal və xidmət sahələrinin yaradılması nəticəsində ötən il olduğu kimi, cari ildə də xeyli iş yeri yaradılıb. Bu da işaxtaran vətəndaşların qarşısında geniş imkanlar açır. Keçirilən əmək yarmarkaları isə əhalinin məşğulluğunun təmin olunması və sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində mühüm rol oynayır.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov çıxış edərək bildirib ki, Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəldilməsi, əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Hazırda uğurla davam etdirilən bu strateji xətt muxtar respublikamızın sosial-iqtisadi inkişafını sürətləndirməklə bərabər, yoxsulluğun aradan qaldırılmasına da geniş imkanlar açıb. Mütəmadi olaraq təşkil edilən əmək yarmarkaları isə qarşıya qoyulmuş vəzifələrin icrası yönündə həyata keçirilən tədbirlərdəndir.

İşaxtaran vətəndaşlar Xəyalə İbrahimova və Sabirə Xəlilova yarmarkanın təşkilində əməyi olanlara minnətdarlıq edərək bildiriblər ki, vətəndaşların müvafiq işlərlə təmin edilməsində əmək yarmarkalarının əhəmiyyəti böyükdür. Hər bir işaxtaran burada öz ixtisasına və bacarığına uyğun iş tapa bilər. Sevindirici haldır ki, iş yerləri haqqında müəyyən məlumatları aidiyyəti qurumların burada təmsil olunan nümayəndələrindən almaq mümkündür.

Qeyd edək ki, Naxçıvan şəhərində təşkil edilən əmək yarmarkasına 44 təşkilatdan 449 boş iş yeri təqdim olunub. Yarmarkada 35 nəfərə göndəriş verilib.

**M.MƏMMƏDOV**

## Kurs iştirakçılarına sertifikatlar təqdim olunub

*Naxçıvan Müəllimlər İnstitutunda Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər tərbiyə müəssisələrinin rəhbərləri, metodistləri, tərbiyəçi-müəllimləri üçün təşkil olunmuş 10 günlük ixtisasartırma kursu başa çatmışdır. Kurs iştirakçılarına sertifikatların verilməsi münasibətilə keçirilən tədbiri institutun rektoru, professor Oruc Həsənli açmışdır. Bildirilmişdir ki, bu gün Azərbaycan təhsil sistemində ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət uğurla davam etdirilir. Bu təhsil sistemində məktəbəqədəryaşlı uşaqların orta təhsilə hazırlığı məsələləri də öz əksini tapmışdır.*

Oruc Həsənli onu da vurğulamışdır ki, məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir. Danılmaz həqiqətdir ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur.



Sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov, institutun müəllimi Həsənəli Eyvazlı və Naxçıvan şəhərindəki 1 nömrəli uşaq bağçasının müdiri Elnarə Seyidova çıxış edərək məktəbəqədər müəssisələrdə çalışan metodist və tərbiyəçi-müəllimlər üçün təşkil edilən belə kursların əhəmiyyətindən danışmışlar.

Sonda kursda iştirak edən 21 nəfərə sertifikat və elektron formada hazırlanmış metodik vəsait verilmişdir.

**Xəbərlər şöbəsi**

*Tarix dəfələrlə sübut edib ki, peşəkar və qüdrətli ordusu olmayan dövlət uzun müddət öz müstəqilliyini qoruyub saxlaya bilməz. Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun yaradılması hər zaman prioritet məsələlərdən olmuş, Milli Ordumuzun əsası XX əsrin əvvəllərində – Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə general Əliağa Şıxlinskinin rəhbərlik etdiyi müsəlman korpusunun əsasında ilk ordu hissəsi, Əlahiddə Azərbaycan Korpusu yaradılmışdır.*



*26 İyun Silahlı Qüvvələr Günüdür*

# Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə malikdir

Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilmişdir. Həmin tarixdən etibarən 26 iyun Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gün kimi hər il ölkəmizdə təntənəli şəkildə qeyd edilir.

Azərbaycanda güclü, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyinin birinci dövründə milli hərbi kadrların hazırlanması məqsədilə həyata keçirdiyi tədbirlər, xüsusilə bunun tərkib hissəsi kimi Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması mühüm tarixi əhəmiyyətə malikdir. İmperiya tərkibində azərbaycanlı gənclərin hərb elminə marağının artırılması və bunun üçün real şəraitin yaradılması, əslində, gələcək müstəqillik üçün atılan addım idi. O dövrdə dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə hazırlanan hərbi kadrlar ölkəmiz müstəqillik qazandıqdan sonra Milli Ordumuzun komandan heyətini təşkil etmişdir.

Müstəqillik tariximizi araşdırarkən bir həqiqət öz təsdiqini tapır ki, Azərbaycanda dövlət və ordu quruculuğu prosesinə ulu öndərin rəhbərliyi ilə Naxçıvanda başlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə demişdir: ***"Ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanın milli dövlətçiliyinin bərpası Naxçıvandan başlandığı kimi, milli ordu quruculuğu da 1991-ci ildə Naxçıvandan başlanmışdır. Böyük dövlət xadimi Naxçıvan Muxtar Respublikasının rəhbəri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etmiş, mövcud hərbi hissə və dəstələrə vahid rəhbərliyin əsasını qoymuşdur".***

O dövrdə ulu öndərin muxtar respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla yanaşı, bütövlükdə, müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin başlanğıcı olmuşdur.

Sonrakı illərdə dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin strukturu tam formalaşdırılmış, bütün növ hərbi birləşmələr, piyada, tank, artilleriya qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qoşunları, əlahiddə taborlar yaradılmış, hərbi hissələr komplektləşdirilmişdir. Bu dövrdə hərbi təhsil məsələləri də diqqətdən kənarda qalmamış, ulu öndər 1999-cu ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 2001-ci ildə respublikamızda fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması haqqında fərmanlar imzalamışdır. Bir sözlə, 1993-cü ildən sonra ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən parlaq səhifələrindən birini Milli Ordunun yaradılması təşkil etmişdir. Ulu öndərimiz bu amilin zəruriliyini vurğulayaraq deyirdi: ***"Azərbaycanın dövlət quruculuğunda əsas yerlərdən biri güclü ordumuzun yaradılmasıdır. Azərbaycan bir tərəfdən Ermənistanın təcavüzünə məruz qaldığına, ikinci tərəfdən təkcə bu gün yox, gələcəkdə də öz torpaqlarını, öz mənafelərini qorumaq üçün güclü orduya malik olmalıdır".***



Dahi şəxsiyyətin rəhbərliyi ilə qısa müddətdə ordunun qanunvericilik bazası yaradılmış, "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlar qəbul edilmişdir. Bununla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması da diqqət mərkəzində saxlanılmış, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulmuşdur. Hazırda Silahlı Qüvvələrimizin sülhməramlıları müxtəlif münaqişə zonalarında öz missiyalarını uğurla yerinə yetirirlər.



Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artmasına və nəticə etibarilə, ordumuzun güclənməsinə şərait yaratmışdır. Ölkə başçısının xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası möhkəmləndirilmiş, hərbçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Müasir döyüş texnikaları ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələri hazırda yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdir. 2008-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 90 illiyi, 2011-ci ildə dövlət müstəqilliyimizin 20 illiyi münasibətilə və 2013-cü ildə keçirilən hərbi paradlar zamanı müstəqil dövlətimizin güclü, qüdrətli ordusunun imkanları bir daha nümayiş etdirildi.

Ordumuzun daha da güclənməsi məqsədilə hər il hərbi xərclər üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin artırılması əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərbi sənaye kompleksi gücləndirilir, Silahlı Qüvvələrimizin döyüş qabiliyyətini artırmaq üçün müxtəlif növ hərbi texnikalar, zirehli maşınlar, atıcı silahlar istehsal olunur. Eyni zamanda ölkəmizin strateji maraqlarına uyğun olaraq, Silahlı Qüvvələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hərbi əməkdaşlığı genişləndirilir, bu sahədə ikitərəfli əlaqələr yaradılır, saziş və memorandumlar imzalanır.

Ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılmışdır. Bu gün Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin artırılması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, xidmətin nümunəvi təşkili, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması barədə danışarkən demişdir: ***"Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan Ordusu bu gün güclü ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".***



Ordu quruculuğunun müasir dövrün tələbləri səviyyəsində aparılması üçün Vətənə sədaqətli, peşəkar milli hərbçi kadrların yetişdirilməsi mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasında hərbçi kadrların hazırlanması da diqqət mərkəzində saxlanılır. Hazırda Heydər Əliyev adına Hərbi Liseyin məzunları Azərbaycan Ordusunda öz xidməti vəzifələrini şərəflə yerinə yetirir, Naxçıvan torpağının yetirmələri olan generalların layiqli davamçıları kimi yetişirlər.

***Bu gün ölkəmizin artan iqtisadi qüdrəti Milli Ordumuzun müasirləşməsinə, döyüş qabiliyyətinin yüksəldilməsinə səbəb olmuşdur. Silahlı Qüvvələrimizə dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qarantı kimi baxan hər bir azərbaycanlı ordumuzla, sözün əsl mənasında, qürur duyur. Milli Ordumuz işğal altında olan torpaqlarımızı azad etmək qüdrətindədir. Bu gün Azərbaycan əsgəri yaxşı bilir ki, onu böyük və şərəfli bir missiya gözləyir: işğal altındakı torpaqlarımızda üçrəngli zəfər bayrağımızı qaldırmaq!***

**"Şərq qapısı"**

## Silahlı Qüvvələr Günü qeyd edilib



İyunun 25-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının növbəti ildönümü münasibətilə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbiri nazirliyin şöbə müdiri Gülbuta Babayeva açıb.

Azərbaycan Silahlı Qüvvələrinin Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov çıxış edərək ölkəmizdə ordu quruculuğunun inkişaf tarixindən danışıb, ümummilli lider Heydər Əliyevin bu sahədəki xidmətlərindən bəhs edib. Bildirilib ki, Azərbaycanda milli ordu quruculuğuna ilk dəfə Naxçıvanda başlanılıb. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk Milli Ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. Naxçıvanda Milli Ordu hissəsinin yaradılması münasibətilə 1992-ci il oktyabrın 9-da ilk hərbi parad keçirilib.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra ordu quruculuğu istiqamətində mühüm addımlar atılıb. Həyata keçirilən tədbirlər nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Görülən işlərin davamı kimi ötən ilin dekabrında Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusu yaradılıb. Bu ordunun yaradılması muxtar respublikanın etibarlı müdafiəsinə daha geniş imkanlar açıb.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar çıxış edərək hər bir Azərbaycan vətəndaşının Milli Ordumuzla qürur duyduğunu deyib, ordumuzun tezliklə işğal altında olan torpaqlarımızı geri qaytaracağına əminliyini bildirib.

Sonda "Heydər Əliyev və Azərbaycan Ordusu" adlı film nümayiş etdirilib.

**S.HƏSƏNOV**




# İqtisadiyyat







***Hər bir ölkənin müstəqil iqtisadi siyasət yeridə bilməsi üçün beynəlxalq iqtisadi əməkdaşlığın bütün mümkün formalarından istifadə olunması əsas şərtdir. Ölkənin və regionun beynəlxalq əmək bölgüsündə tutduğu yerə görə digər dünya ölkələri ilə inteqrasiya əlaqələrinə girməsi, son nəticədə, onun beynəlxalq aləmdə nüfuzunu artırıb ona etibarlı partnyorlar qazandıran və birgə layihələrdə və siyasi arenada söz sahibinə çevrilməsinə imkan yaradan ən mühüm amillərdən biridir.***

## Naxçıvanın ixrac imkanları genişlənir

Beynəlxalq iqtisadi inteqrasiya ölkələr arasında əmtəə və xidmətlərin sərbəst mübadiləsi, kapitalın və iş qüvvəsinin azad hərəkəti, birgə iqtisadi, elmi-texniki layihələrin həyata keçirilməsinə əsaslanır. Bunun vasitəsilə dünya dövlətləri iqtisadi inteqrasiya yolu ilə öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin rifahını yüksəltməyə səy göstərirlər. Müstəqillik dövründə Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi siyasət nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyasında çox böyük nəticələr əldə olunmuşdur. İndi artıq ölkəmiz iri regional ittifaqlarda təmsil olunmaqda, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, İslam İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdədir. Bu istiqamətdə görülən işlər isə, ilk növbədə, ölkəmizdə əlverişli biznes və investisiya mühiti yaratmaqla sahibkarlığı inkişaf etdirməyə, iqtisadiyyatın perspektivli sahələrinə daxili və xarici investisiyalar cəlb olunmasına, qeyri-neft sektorunun inkişafına imkan vermişdir.

Xarici iqtisadi əlaqələr müasir dövrdə iqtisadi və mədəni inkişafın mühüm göstəricilərindən biri hesab olunur. Xarici ölkələrlə yaradılan hər bir əməkdaşlıq, son nəticədə, ölkənin qlobal rəqabət mühitindəki yerinə təsir edən bir amil kimi çıxış edir və bu, ölkənin investisiya cazibədarlığını müəyyən edən mühüm amillərdən biridir. Bu da, öz növbəsində, ölkədə və onun regionlarında biznes mühitinin daha da dərinləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Məhz beynəlxalq rəqabətin təsiri altında xüsusi iqtisadi zonalar, sənaye şəhərcikləri, texnoparklar, biznes-inkubatorlar yaradılır, məsləhət, informasiya təminatı təşkil edilir, beynəlxalq iqtisadi əməkdaşlığın xüsusi bir növü olan beynəlxalq turizm həm gəlmə, həm də getmə turizm tiplərində sürətlə inkişaf etdirilir. Bunun üçün ən mühüm amillərdən biri regionun malik olduğu istehsal-iqtisadi və rekreasiya imkanlarının onun coğrafi və geostrateji mövqeyi ilə dəstəklənməsidir. Əgər ölkədə siyasi sabitlik yaradıb onun bu potensialını dünya iqtisadiyyatına inteqrasiya etdirmək zamanın tələbidirsə, bu potensialdan maksimum səmərə ilə istifadə edib həyat səviyyəsinin yüksəldilməsinə yönəldilən hər bir addım da burada yaşayan insanların tələbidir. Konkret olaraq, buna Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası timsalında nəzər salsaq, görərik ki, regionda işgüzar fəallıq artıb həyat səviyyəsi yüksəldikcə tələbatların ödənilməsi üçün regionun idxal və ixrac proseslərinin də payı artmaqdadır. Belə ki, muxtar respublikadakı istehsal müəssisələri qısa bir müddət ərzində öz fəaliyyətində yeni texnologiyaların tətbiqi və xarici bazarlara çıxış məsələlərində mühüm bir irəliləyiş qət etmişdir. Yaxın keçmişə nəzər salsaq, görərik ki, ölkəmiz müstəqillik əldə etdikdən sonrakı ilk dövrlərdə əhalinin artan tələbatlarının ödənilməsi məqsədilə regiona idxal olunan hər çeşid məhsulların tədricən yerli məhsullarla əvəz edilməsi regionun iqtisadi təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin birinci mərhələsinin vəzifəsi olmuşdur. Bunu təmin etmək, onu sözdə deyil, işdə həyata keçirmək isə heç də bir neçə kəlməyə sığan həcmdə asan iş deyildir. İnsanların həyatında, gündəlik tələbatlarında özünə möhkəm yer tutmuş bəzi elementlərin, məsələn, çox zaman idxala və ya el dili ilə desək, “xarici mallar”a üstünlük verilməsinin əksinə olaraq, yerli məhsullara keçidin təmin olunması kifayət qədər zəhmət, dəqiq proqramlaşdırılmış siyasət və vaxt tələb edən bir məsələ kimi qarşıda durmuşdur. Onun bütün imkanlar daxilində həll edilməsi və yerli istehsal məhsullarının istehlak bazarında mühüm yerə gəlib çatması növbəti, daha mühüm ikinci mərhələyə keçidi şərtləndirmişdir. Bu, Naxçıvan Muxtar Respublikasında ixracyönümlü iqtisadiyyatın yaradılması və regiondakı istehsal və xidmət müəssisələrinin buradakı rolunun və məsuliyyətinin artırılması ilə əlaqədar olan bir məsələdir. Bu məhz ona görə mühümdür ki, açıq iqtisadiyyata malik olan bir ölkədə fəaliyyət göstərən istənilən müəssisə qlobal rəqabətə qoşulduğundan öz fəaliyyətini dünya və Avropa standartları səviyyəsində qurmalı və bütün göstəricilər, keyfiyyət, ekoloji və sosial məsuliyyət məsələləri üzrə daim təkmilləşdirmə strategiyası həyata keçirməlidir. Qeyd etmək lazımdır ki, bu faktor həm də həmin müəssisənin daxili bazardakı uğurunun təminatçısıdır. Başqa sözlə, xarici bazarda özünə yer tuta bilən bir müəssisənin məhsullarına verilən keyfiyyət zəmanəti ilə bunu bacara bilməyən digər sahibkarın məhsullarının müqayisəsindən danışmaq çox çətindir. Ona görə müasir dövrdə Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf məsələlərində yeni vəzifələr kimi ixrac məsələləri üstünlük təşkil edir. İndi artıq müasir tələblər çərçivəsində muxtar respublikamızda sənaye parkının yaradılması, yerli resurslardan səmərəli istifadə etməklə rəqabətqabiliyyətli son sənaye məhsulu istehsalının və yüksək əlavə dəyər yaradan istehsal sahələrinin təşkil olunması vəzifəsi qarşıya qoyulmuşdur. Çünki Naxçıvanda yaradılan hər yeni istehsal müəssisəsi qlobal rəqabətə qoşulduqca dünya standartları səviyyəsində məhsullar istehsal edilməsi zərurəti də yaranır. Bu gün Naxçıvan brendi ilə xarici bazarlarda özünə yer qazanan yüksəkkeyfiyyətli, ekoloji təmiz ərzaq və qeyri-ərzaq məhsullarının istehsalı və xaricə ixracı üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvanın zəngin turizm potensialından istifadəyə imkan verəcək beynəlxalq turizmin təşkili də bu istiqamətdə qarşıya qoyulmuş mühüm vəzifələrdəndir.

Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın tempi artdıqca xarici iqtisadi əlaqələr də genişlənməkdədir. Bu da, öz növbəsində, xarici ticarət həcminin və onun coğrafiyasının genişlənməsini təmin etməkdədir. Təkcə cari ilin ilk beş ayı ərzində muxtar respublikanın 166 milyon 635 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi olmuşdur ki, bu da bir il öncəki göstəricini 0,4 faiz üstələmişdir. İxracın həcmi son bir il ərzində 14,5 faiz artaraq 119 milyon ABŞ dollarını ötmüş və xarici ticarət üzrə 71 milyon ABŞ dollarından çox həcmdə müsbət saldo yaranmışdır. Muxtar respublikanın malik olduğu bütün iqtisadi-istehsal imkanlarından, təbii ehtiyatlarından səmərəli istifadə etməklə onun ixrac potensialının daha da artırılması, ixracatda elm və əməktutumlu məhsullara üstünlük verilməsi üçün qarşıda yeni üfüqlər açılmışdır. Bu, hər keçən gün yüksələn Naxçıvanın dünyaya açılan geniş pəncərəsidir.

**✍ Əli CABBAROV**

***Hələ uşaqlıq illərindən yaxşı xatırlayıram ki, kənddə taxıl biçininə başlanması əsl el bayramına çevrilərdi. Torpaqlar ictimai təsərrüfatlara məxsus olsa da, kənd ağsaqqalları biçiləcək zəminin kənarına toplaşar, bir-birlərinə gözaydınlığı verərdilər. Sahənin kənarına mexanizatorlar, sürücülər üçün cürbəcür yeməklər gətirilərdi, samovar salınardı. Çünki tədarük olunan taxıl sabahın çörəyi demək idi. Çörək isə min illərdir ki, hamımız üçün ən müqəddəs nemətdir. Bu nemətin bolluğu həmişə insanları düşündürüb. Yaşlı adamlardan dəfələrlə bu sözləri eşitmişik: “Ulu Tanrı heç vaxt öz bəndəsini çörəklə imtahana çəkməsin”. Ancaq nə edəsən ki, xalqımızın belə imtahanla üz-üzə qaldığı vaxtlar da olub. Saatlarla mağazaların qarşısında çörək növbələri yaranıb. Çox şükür ki, bu gün süfrələrimizdə çörək sarıdan heç bir nigarançılığımız yoxdur. Dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlər öz bəhrələrini verməkdədir.***

## Çörək bol olarsa...

### *Taxıl tədarükünün ilkin nəticələri buna əminlik yaradır*



Bu günlər muxtar respublikamızın taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinin, sahibkarlarının sevincinin həddi-hüdudu yoxdur. Daha bir taxıl tədarükü mövsümü uğurla davam etdirilir. Bu isə o deməkdir ki, süfrələrimiz yenə də öz taxılımızın çörəyi ilə bol olacaq. Belə bolluğa isə asanlıqla nail olmamışıq.

Bunun təməlində ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi uzaqgörən aqrar siyasət dayanıb. Bu siyasətin son illərdə muxtar diyarımızda uğurla davam etdirilməsi nəticəsində böyük nailiyyətlər əldə olunub. Digər sahələrə toxunmadan muxtar respublikanın torpaq mülkiyyətçilərinin aqrar sahədə, konkret olaraq, taxılçılıqda qazandıqları uğurları, bu sahənin inkişafı üçün göstərilən diqqət və qayğını göz önünə gətirsək, tarix üçün qısa zaman kəsiyində böyük irəliləyişlərə nail olunduğunu görərik. Sevindirici haldır ki, bu gün bir qarış torpağımız əkilməmiş qalmır, dövlətimiz bu qiymətli sərvətdən səmərəli istifadə olunması üçün hərtərəfli şərait yaradır. Zəhmətdən qorxmayan, torpağa daimi iş yeri kimi baxan insanlarımız bu şəraitdən səmərəli istifadə edir, yurdumuzun iqtisadiyyatının güclənməsinə çalışırlar. Ölkə başçısının “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 2007-ci il 23 yanvar tarixli Sərəncamına əsasən, kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət tərəfindən hər hektar sahə üçün 40 manat, bundan başqa, buğda istehsalçılarının maddi marağının artırılması məqsədilə səpilən hər hektar buğda sahəsi üçün əlavə olaraq 40 manat vəsaitin verilməsi təmin olunub, həm kreditlərdən, həm də həmin yardımlardan təyinatı üzrə istifadə edilməsi diqqət mərkəzində saxlanılıb.

2009-cu ildə istifadəyə verilən 18 min ton taxılı uzun müddətə, 20 min ton taxılı qısa müddətə saxlamağa imkan verən taxıl ehtiyatı anbarı muxtar respublikada taxıl ehtiyatının yaradılmasında əsas rol oynamaqla istehsalçıların məhsul tədarükü zamanı rastlaşdıqları problemlərin aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir.

Aqrar sektorun inkişafında mühüm mərhələ kimi soyuducu anbarların yaradılması, əkin sahələrinin suvarma suyuna olan tələbatını ödəmək üçün mövcud subartezian quyularının, kəhrizlərin, nasos stansiyalarının təmiri və yenilərinin istifadəyə verilməsi torpaq mülkiyyətçilərinin çətinliklərini aradan qaldırıb. Bu da hektarlarla sahənin əkin dövriyyəsinə qatılmasına imkan verib. Bununla yanaşı, kənd təsərrüfatı üzrə ümumi inkişafı sürətləndirən mühüm amillərdən biri müasir texnikalardan istifadə olunması və lizinq münasibətlərinin yüksəldilməsidir. Bu istiqamətdə də xeyli iş görülüb. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 366 ədədi 2013-cü, 165 ədədi 2014-cü ildə olmaqla, cəmi 1410 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilib, ötən il 157 ədəd, ümumilikdə isə 1061 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə məhsul istehsalçılarına verilib.

Cari ilin taxıl tədarükü üçün qabaqlayıcı tədbirlər diqqət mərkəzində saxlanılıb, 100-dən artıq kombayn işlək vəziyyətə gətirilib, taxılı sahələrdən daşımaq üçün texnikalar ayrılıb, ehtiyat hissələr əldə olunub, rayonlarda qərargahlar yaradılıb.

Məlumat üçün bildirək ki, 2014-cü ilin məhsulu üçün muxtar respublikada 35,7 min hektar sahədə taxıl əkilib. Bu da əvvəlki illə müqayisədə xeyli çoxdur. Taxıl istehsalçılarına əvvəlki illərdə olduğu kimi kreditlər verilib, bu vəsaitin təyinatı üzrə xərclənməsi diqqət mərkəzində saxlanılıb. Mineral gübrələrlə təminat da unudulmayıb, sahələr vaxtlı-vaxtında suvarılıb, ötən payızdan çəkilən zəhmət hədər getməyib, sahələrdə bol məhsul yetişdirilib. Bu günədək 2500 hektar sahənin məhsulu tədarük edilib. Sahələrə hələlik 80 kombayn çıxarılıb. Bu texnikaların gücü ilə hər gün 300-400 hektar sahənin taxılı biçilir.

Taxılçılıq üçün münbit torpaq sahələrinə malik olan Babək rayonunda hər il yüksəkkeyfiyyətli məhsul istehsal olunur. Torpaq mülkiyyətçiləri mövcud şəraitdən səmərəli istifadə etməyə çalışır, daxili bazara öz töhfələrini verirlər. Cari ilin bol məhsulu üçün ötən ilin payızında rayonun taxılçıları 10 min 364,8 hektar sahədə taxıl əkini keçirib. Bunun 7777,8 hektarı buğda, 2587 hektarı isə arpadır. Ötən müddət ərzində bütün aqrotexniki tədbirlərə əməl edilib. Bu da öz bəhrələrini verir. Bir neçə gündür ki, sahələrdə kombaynlar minbir zəhmətlə hasilə gətirilmiş taxılı tədarük edirlər. Operativ məlumata görə, bu günədək 711 hektar sahənin məhsulu toplanılıb.

Taxıl biçininin gedişi ilə tanış olmaq üçün rayonun bir neçə kəndinə baş çəkdik. Nehrəm kəndində sahəsinin taxılını biçdirən Asəf Məmmədov ilə həmsöhbət olduq. Bildirdi ki, taxılçılıq üçün dövlət tərəfindən müəyyən olunmuş bütün güzəştlərdən istifadə edib. Bu gün sahəsinin məhsulu biçilir. İlk bunkerdən görünür ki, sahədə keyfiyyətli və bol məhsul yetişib.

Babək qəsəbəsində, Çeşməbasar, Güznüt, Yarımca, Qahab, Zeynəddin kəndlərində də taxıl biçininin sürətlə aparıldığının şahidi olduq. Taxılçılardan Arif Səfərov, Sənan Novruzov və başqaları bildirdilər ki, cari ildə daha yüksək göstəricilərə nail olacaqlar. Onların sözlərini mexanizatorlar da təsdiq etdilər. Yeri gəlmişkən onu da qeyd edək ki, bu gün Babək rayonunda 22 kombayn var. Onların hamısı işlək vəziyyətə gətirilib. Həmin texnikaların, hələlik, 15-dən istifadə olunur. Taxılçılar hər il “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xidmətindən də istifadə edirlər.

Builki taxıl mövsümü ilə bağlı müşahidələr apararkən uzun illər Babək rayonunun Yarımca kəndində ictimai təsərrüfata rəhbərlik etmiş təsərrüfatçı Ələsgər Yusifovla görüşdüm. Onun dediklərindən:

– Sovet dönəmində ümidimizi bağlamışdıq dükanlara gətirilən una. Bu gün dövlətimiz öz qapımızda bizə hər cür şərait yaradıb. Torpaq verib, su verir, gübrə verir, texnika verir, yardım edir, dəyirman da nə qədər istəsən... Daha nə lazımdır? Qalır ki, zəhmətə qatlaşasan, əziyyət çəkəsən ki, süfrən də bol olsun. Kim ki zəhmətdən qorxmur, canına cəfa verməyi bacarır, onun gün-güzəranı da istədiyi kimidir, kimsə ələbaxımlılıq xəstəliyinə tutulub, özündən küssün...

* * *

Muxtar respublikanın ən böyük taxılçılıq rayonlarından biri də Şərurdur. Bölgənin məhsuldar və münbit torpaq sahələri burada yüksəkkeyfiyyətli taxıl istehsalına imkan verir. Şərurun torpaq mülkiyyətçiləri də hərtərəfli qayğı ilə əhatə olunublar. Rayonda bu ilin məhsulu üçün 9184,1 hektar sahədə taxıl əkilib. Bunun 7313,8 hektarı buğda, 1870,3 hektarı isə arpadır. İndiyədək 117 hektar sahənin məhsulu biçilib, 344 ton taxıl istehsal olunub. Hələlik hektarın orta məhsuldarlığı 29,4 sentner təşkil edir.

Biçinə 14 kombayn cəlb edilib.

* * *

Göründüyü kimi, son illər bəhs olunan sahədə qazanılan nailiyyətlər xeylidir və bu da təbiidir. Nailiyyətlərin arxasında düzgün müəyyənləşdirilmiş siyasət, bu siyasətin həyata keçirilməsində əzmkarlıq dayanıb, üzləşilən çətinliklər dəf edilib. Son olaraq isə ürəkaçan rəqəmlərlə dolu olan qeydlərimə daha bir statistik göstərici əlavə etməyə ehtiyac duyuram. Əgər 1995-ci ildə muxtar respublikada 23 min 600 ton taxıl istehsal olunubsa, həmin rəqəm 2013-cü ildə 102 min 960 tona yüksəlib. Bu, çəkilən zəhmətin, böyük dövlət qayğısının əvəzsiz qalmaması, torpağa tər axıdan insanların qiymətli sərvətin səxavətindən səmərəli istifadəsi deməkdir.

...Rəqəmlər cansız olsa da, onların arxasında fədakar əmək, insan amilinə göstərilən qayğı dayanır. Taxılçılıqda əldə olunan nailiyyətlər dövlət qayğısı ilə yanaşı, yurd, torpaq qədri bilən naxçıvanlıların fəallığının nəticəsidir. Bu da onunla bağlıdır ki, qədim diyarımızın sakinləri halallığa söykənən və onu hər şeydən üstün tutan insanlardır. Elə ona görə də süfrələrinin ruzi-bərəkəti ildən-ilə artır.

**✍ Muxtar MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikasının bütün bölgələri kimi, Gilançay vadisi də arxeoloji abidələrlə zəngindir. Gilançayın sağ və sol sahilindəki ərazilərdə olan Tunc, Dəmir, Antik və orta əsrlər dövrünə aid abidələr maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Gilançay vadisindəki arxeoloji abidələr içərisində Plovdağın ətəyində olan Tunc dövrü yaşayış yerləri və nekropollar nəinki Azərbaycan, həmçinin dünya arxeologiyasında mühüm yeri olan unikal abidədir. Plovdağ yaşayış yerindəki tikili qalıqlarından, nekropollardakı kurqanaltı daş qutu və torpaqtipli qəbirlərdən əldə olunmuş arxeoloji materialları gözdən keçirərkən hər bir insan Tunc dövrünə ekskursiya edir, bu dövr haqqında müəyyən təsəvvürlərə sahib olur.*

## Plovdağ abidələrində maraqlı elmi nəticələr əldə olunmuşdur



Plovdağ yaşayış yeri və nekropollarında Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən 1975-1976, 1987-1988-ci illərdə ilkin arxeoloji tədqiqatlar aparılmışdır. Sonrakı dövrlərdə bu abidələr arxeoloq Bəhlul İbrahimli tərəfindən sistemli şəkildə öyrənilmişdir. Hər bir tədqiqat dövründə tədqiqatçı tərəfindən nəinki Azərbaycan, həmçinin dünya arxeologiyası üçün əhəmiyyətli olan elmi nəticələr əldə olunmuşdur. 2010-cu ildə tədqiqatçı-arxeoloq tərəfindən Plovdağ nekropolunun mərkəzi hissəsi və şərq tərəfindəki yeddi kurqanın altından Erkən Tunc dövrünə aid yaşayış yerinin qalıqları və bu dövrə aid keramika məmulatları, gil ocaqlar və daş əmək alətləri aşkar edilmişdir. 2012-ci ildə Plovdağın şərq tərəfində 1,5 hektar sahəni əhatə edən yeni bir abidə – III Plovdağ nekropolu ilk dəfə qeydə alınaraq elmi araşdırma obyektinə çevrilmişdir. 2013-cü tədqiqat ilində də bir sıra maraqlı elmi nəticələr əldə edilmişdir. Tədqiqatçı-arxeoloq Bəhlul İbrahimli tərəfindən Plovdağ abidələrində əldə olunmuş elmi nəticələr Naxçıvanın qədim tarixinin dərindən öyrənilməsi işinə zəngin material verir.

Plovdağ yaşayış yerində aparılan arxeoloji qazıntılar Naxçıvandakı Tunc dövrünə aid yaşayış evlərinin, yardımçı tikililərin planı və interyeri haqqında geniş məlumat əldə etməyə imkan verir. Oradakı yaşayış evləri orijinal planlı olub, özünəməxsus tikinti texnikası ilə fərqlənir. Planlı surətdə tikilmiş otaqlardan bir qrupu yaşayış üçün istifadə edilmiş, bəzilərində isə ərzaq saxlanılmışdır. Yaşayış yerindəki tikililər dairəvi, düzbucaqlı və dördbucaqlı formadadır. Erkən Tunc dövrünə aid kiçikhəcmli tikililərin, evlərin özülü daşla, yuxarı hissəsi isə möhrə (palçıq) və çiy kərpiclə tikilmişdir. Bu tip tikililər I Kültəpə, Ovçular təpəsi, I Maxta, II Kültəpə və digər abidələrdə də aşkar edilmişdir. I Maxta abidəsində olduğu kimi, Plovdağ yaşayış yerində də Erkən Tunc dövrünə aid dairəvi və dördkünc evlər yanaşı tikilmişdir.

Plovdağ nekropolunda aparılan arxeoloji tədqiqatlar zamanı əldə olunan elmi nəticələr Naxçıvanın Tunc dövrü qəbirlərinin tiplərini, kurqantipli qəbirlərin xronoloji ardıcıllığını və bu dövrün dəfnetmə adətinin incəliklərini öyrənməyə imkan verir. 2012-ci ildə aşkar edilmiş III Plovdağ nekropolunda aparılan araşdırmalar zamanı əvvəlki dövrün tədqiqatlarından fərqli olaraq, yeni qəbir tipləri, maraqlı arxeoloji materiallar aşkar edilmişdir. Bu abidədəki kurqanların kromlexləri I və II Plovdağ nekropolundakı kurqanlardan fərqli olaraq, iki sıra daşla divar kimi hörülmüşdür. I və II Plovdağ nekropollarındakı qəbirlər, əsasən, qurbangahlıdır. Qurbangahlar qəbrə şərq tərəfdən işlənmişdir. Orta Tunc dövrünə aid kurqanlar dördbucaqlı və beşbucaqlı plandadır. Onların əksəriyyətinə gil qablar qoyulmuşdur.

Plovdağın ətəyindəki yaşayış yeri və nekropollardan xeyli miqdarda arxeoloji materiallar – gil qablar, bəzək əşyaları, əmək alətləri, silahlar və sair aşkar olunmuşdur. Gil qablar boyalı və boyasız olmaqla iki qrupa bölünür. Bu qablardan mətbəx və təsərrüfatda istifadə olunmuşdur. Boyalı qablar, əsasən, həndəsi ornamentlərlə naxışlanmışdır. Naxışlar sadə və mürəkkəb kompozisiyalı olmaqla bir neçə qrupa bölünür. Plovdağ nekropolundakı qəbirlərdə, bir qayda olaraq, kişilər sol, qadınlar isə sağ tərəfi üstə dəfn edilmişlər. Nekropollardakı qəbirlərdən qədim dəfnetmə adətimizlə bağlı maraqlı arxeoloji materiallar – insan skeletləri aşkar olunmuşdur. Belə maraqlı arxeoloji materiallardan birini nekropoldakı qəbirlərdən birində uşağın ana ilə birlikdə dəfn olunması təşkil edir. Qədim Şumer, Ubeyd mədəniyyətlərində də sağ və sol tərəfi üstə dəfn edilmiş insan skeletləri aşkar edilmişdir. Bu tip dəfnetmə I Kültəpə abidəsinin Eneolit dövrü təbəqəsindən də tapılmışdır. Plovdağ nekropolunda aşkar olunmuş sağ əlində piyalə və ya kiçikhəcmli çanaq olan insan skeletləri də maraqlı arxeoloji materiallardandır. Bu tip dəfnetmə adəti Mesapotamiya, Altay, Qazaxıstanda da mövcud olmuşdur. Naxçıvanda I Kültəpə abidəsinin Eneolit dövrü təbəqəsindən bu tip dəfnetmə adətinin qədim kökləri aşkar edilmişdir. Tədqiq olunan dövrdən üç min il sonrakı dövrün tarixi mənbələrində də bu tip dəfnetmə adəti haqqında məlumata rast gəlinir. Ərəb səyyahı İbn Fədlan oğuz qəbilələrinin adətlərini təsvir edərkən qeyd etmişdir ki, oğuzlar ölən insanları qəbrə bükülü vəziyyətdə qoyub əlinə cam verirmişlər. Plovdağ nekropolunda araşdırmalar zamanı silahı və bəzəkləri ilə birlikdə dəfn olunmuş qadın skeletləri də maraqlı arxeoloji materiallardan olub, Naxçıvanın qədim tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edirlər. Aparılan araşdırmalar zamanı məlum olur ki, Plovdağ nekropolundakı digər dəfnetmə adətləri kimi, bu dəfnetmə adəti də prototürklərin yaşadığı ərazilərdə yayılmışdır. Mərkəzi Asiya, Volqaboyu, Qafqaz bölgəsindəki arxeoloji abidələrdə bu tip dəfnetmə aşkar edilmişdir.

Plovdağ abidəsində aparılan arxeoloji araşdırmalar zamanı əldə olunmuş nəticələrin müqayisəsi bir daha onu sübut edir ki, Gilançay vadisi Naxçıvanın qədim yaşayış yerlərindən biridir. Naxçıvan Muxtar Respublikasının digər bölgələrində olduğu kimi, bu ərazilərdə də qədim dövrdən türk tayfaları yaşamışlar. Tariximizin daş yaddaşına çevrilən, açıq səma altında muzey təəssüratı bağışlayan Plovdağ arxeoloji abidələrindən əldə olunmuş zəngin arxeoloji materiallar, maraqlı elmi nəticələr Tunc dövründə Naxçıvanda yaşamış qədim əkinçi-maldar tayfaların maddi və mənəvi mədəniyyətini, məişətini, təsərrüfat həyatını, qonşu tayfalarla qarşılıqlı iqtisadi, mədəni əlaqələrini kompleks şəkildə öyrənməklə yanaşı, Naxçıvan Muxtar Respublikasının turizm potensialının gücləndirilməsi sahəsində də özünəməxsus əhəmiyyət kəsb etməkdədir.

**Toğrul XƏLİLOV**
***tarix üzrə fəlsəfə doktoru***

*Yeni nəşrlər*

## "Naxçıvan Muxtar Respublikasında istedadlı uşaqların inkişafı" adlı kitab çapdan çıxıb




*Milli sərvət – o təkcə ölkələrin sahib olduğu iqtisadi resurslar, təbii ehtiyatlar, geostrateji mövqe deyil; milli sərvət həm də bir millətin sahib olduğu milli və mənəvi dəyərlər, o millətin istedadlı nümayəndələri, ölkənin istedadlı vətəndaşlarıdır. Bunlar həm də elə sərvətlərdir ki, onlar olmadan bir millətə təbii sərvətlərin heç bir yararı yoxdur. Elə bu səbəbdəndir ki, dünyada çox az təbii sərvətə sahib olub, əhalisinin istedadı və əməksevərliyi nəticəsində yüksək rifah səviyyəsinə malik Yaponiya ilə yanaşı, sonsuz təbii sərvətlər sahibi olan, əhalisi çox aşağı səviyyədə yaşayan Hindistan kimi ölkələr də var. Deməli, ən böyük sərvət də, ən böyük kapital da insandır, o insanın istedadıdır. Millətlər o zaman inkişaf edir, milli təfəkkür o zaman iti zəkaya çevrilir ki, hər şey təbii sərvətlərin qorunmasına deyil, insanın qorunmasına yönəldilir. O insanın istedadı, bacarığı isə təbii resurslardan düzgün istifadə etməklə, bütövlükdə, ölkəni qoruyur; həm də gələcək milli sərvətin – uşaqların və gənclərin normal böyüməsini təmin edir.*

Azərbaycanda istedadlı uşaqların və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi ötən əsrin 70-ci illərindən etibarən diqqət mərkəzində olmuş, 1993-cü ildən isə yeni və daha milli mərhələdə bu iş davam etdirilir. Ötən illər ərzində ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə görülən işlərin elmi şəkildə öyrənilməsi isə gələcək yolun müəyyənləşdirilməsi üçün əsaslı zəmin yaradır. Bu günlərdə nəşr olunmuş "Naxçıvan Muxtar Respublikasında istedadlı uşaqların inkişafı" adlı kitab da məhz keçmişdən bu günə keçilən yola işıq salır və milli sərvətimiz olan istedadlı uşaqların inkişaf xəttinin inkişaf istiqamətlərinə elmi nöqteyi-nəzərdən yanaşmanı müəyyənləşdirir. Psixologiya elmləri doktoru, professor Oruc Həsənli və pedaqogika üzrə fəlsəfə doktoru Kamal Camalovun həmmüəllifliyi ilə çapdan çıxan 384 səhifəlik kitab Naxçıvan Muxtar Respublikasının 90 illiyinə müəlliflərin ərmağanıdır.

Kitabda istedadlı uşaqların tanınması üçün ümumi qanunauyğunluqlar, Naxçıvan Muxtar Respublikasında istedadlı uşaqların inkişaf istiqamətləri, Şərqin görkəmli mütəfəkkirlərinin istedadlı uşaqlar haqqında fikirləri təhlilə cəlb edilmişdir. Məktəbəqədəryaşlı, kiçikməktəbyaşlı uşaqlarda psixoloji problemlər, onların aradan qaldırılması yolları, istedadın aşkar edilməsi üçün uşaqların fərdi psixoloji xüsusiyyətlərinin öyrənilməsi metodları kitabın elmi-psixoloji və elmi-pedaqoji məziyyətlərindəndir. Kitab ümummilli lider Heydər Əliyevin "Mən həyatımın, bu günümün, gələcəyimin də xoşbəxtliyini, səadətini məhz uşaqlara qayğıda, diqqətdə görürəm" müdrik fikri ilə başlayır. Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında uşaqların və gənclərin inkişafı ilə bağlı imzalanan fərman və sərəncamlar, qəbul edilmiş dövlət proqramları təqdim edilir.

Kitabın "Naxçıvan Muxtar Respublikasında istedadlı uşaqlara qayğı" adlanan birinci fəslində 2009-cu ilin ölkəmizdə "Uşaq ili" elan edilməsi ilə bağlı həyata keçirilmiş tədbirlərdən, dövlət uşaq siyasətinin həyata keçirilməsi istiqamətində reallaşdırılan layihələrdən bəhs edilir.

"Şərqin görkəmli mütəfəkkirlərinin uşaqlara münasibəti haqqında" adlanan fəsildə Marağalı Əhvədinin, Nəcəf bəy Vəzirovun, Mirzə Ələkbər Sabirin, Hüseyn Cavidin, Məhəmməd Tağı Sidqinin, Üzeyir Hacıbəylinin və Şərq mütəfəkkirlərinin uşaqlara münasibəti, valideyn-övlad münasibətlərinə baxışları təhlil edilmiş, onların yaradıcılığından tərbiyəvi əhəmiyyətli nümunələr təqdim olunmuşdur. "Məktəbəqədər uşaqlarda psixoloji problemlər və onların aradan qaldırılması yolları" adlanan üçüncü fəsildə məktəb təliminə hazır olmayan və "fantaziyaçı" uşaqlarla korreksiya işinin psixoloji xüsusiyyətləri, ilk uşaqlıq dövründə şəxsiyyətin inkişafı, məktəbəqədəryaşlı uşaqlarda səs tələffüzü qüsurları və onların aradan qaldırılması yolları, məktəbəqədəryaşlı uşaqlarla davranış qaydaları haqqında geniş məlumat verilmişdir.

Kitabın dördüncü fəslində isə "Kiçikyaşlı məktəbli dövründə psixi problemlər və onların aradan qaldırılması" yollarından bəhs olunur. Birinci sinif şagirdlərinin məktəbə adaptasiyasının xüsusiyyətləri, kiçikyaşlı məktəbli dövründə psixi inkişafın xüsusiyyətləri və iradi fəaliyyətin təşəkkülü, məktəblilərin nevrozlarının səbəbləri və onların aradan qaldırılması yolları, uşaqların fərdi bacarıqlarının, xüsusiyyətlərinin, meyil və maraqlarının, intellekt imkanlarının öyrənilməsində psixoloji testlərin və texnologiyanın tətbiqi məsələləri haqqında bu fəsildə məlumat verilməsi kitabın həm də metodik vəsait kimi əhəmiyyətini artırır. "Uşaqlarda fərdi psixoloji xüsusiyyətlərin öyrənilməsi" adlanan növbəti fəsil də bu cəhətdən maraq doğurur. Burada stress keçirmiş uşağa psixoloji yardım qaydaları, uşaqlarda psixi deprivasiya, temperamentin öyrənilməsi və tərbiyə edilməsi, məktəbdə psixoloji fəaliyyət, uşaqların sosiallaşmasında məktəb psixoloqu və müəllimin rolu haqqında məlumat verilir. Kitabın sonuncu – VI fəsli valideynlər, müəllimlər və cəmiyyət üçün tövsiyə xarakterli bir başlıqla adlandırılıb – "Gələcəyimiz olan uşaqların qayğısına qalaq". Bu fəsildə ailədə əxlaqi şüurun formalaşmasına nəzarət, uşaqlarda yaş böhranı və onun nəzərə alınması, uşaqlara elmin dəyərinin sevdirilməsi yollarından bəhs edilir.

*Kitab, ümumilikdə, tərbiyəçilər, valideynlər və bu sahədə fəaliyyət göstərən tədqiqatçılar üçün əhəmiyyətli ola bilər.*

**✍ Elnur KƏLBİZADƏ**

## Sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə növbəti görüş

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində autizm sindromlu uşaqların valideynləri ilə maarifləndirici görüş keçirilib.

Tədbirdə Naxçıvan Əlillərin Bərpa Mərkəzinin həkim-nevropotoloq-psixoterapevti Rəfayil Orucov, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müəllim-defektoloqu Çinarə Abbasova autizm sindromlu uşaqların ailə üzvləri ilə psixoloji-mənəvi söhbət aparıb.

Sonda valideynləri maraqlandıran suallar cavablandırılıb.

Tədbirin təşkil edilməsində əsas məqsəd valideynlərə autik uşaqlarla evdə davranış, təlim-tərbiyənin təşkili və ünsiyyətqurma bacarıqlarının inkişaf etdirilməsinə dair məsləhət xidmətinin göstərilməsidir.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Qasımov Əsgər Cəfər oğlunun adına verilmiş 001467 nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Sabir küçəsi 91-də yaşayan Məhərrəmov Məhərrəm Binyət oğluna məxsus 3346 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müdiri Ağarza Rüstəmov ailəsi ilə birlikdə akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Coğrafiya kafedrasının müdiri Nazim Bababəyli və kafedranın əməkdaşları Sahib Hacıyevə, əzizi **VÜQARIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının kollektivi Ramiz Qurbanova, atası **XUDAQULUNUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanı Asif Şirəliyev, dekan müavini Teymur Abbasov və fakültənin kollektivi akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin magistratura üzrə dekanı Etibar Məmmədov, dekan müavini Asəf Əliyev və dekanlığın əməkdaşları akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından Mirhəsən, Miryasin Eminovlar və Tofiq Nəcəfov akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı Qərib Allahverdiyev və fakültənin əməkdaşları akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 557